# İSLAM VƏ RUSİYANIN GƏLƏCƏYİ

**Olqa Bruşlinskaya**

Son illərdə professor Aleksey Malaşenko Rusiyada etnik və dini münasibətlər haqqında tədqiqatlarla məşğuldur. O, tədqiqatlarında İslama xüsusi yeri ayırmışdır. Son vaxtlar professorun "Müasir Rusiyada islami oyanış" adlı kitabı çap olunmuşdur. Müəllif həmin kitabda Rusiyadakı müsəlman icmasının həyatını təsvir etmiş, fəal şəxsiyyətlər və ölkə müsəlmanlarının zəruri məsələləri haqqında öz nəzərlərini irəli sürmüşdür. Bu bölmədə Aleksey Malaşenkonun müsahibəsini təqdim edirik:

**Müasir dövrümüzdə "siyasət məsələsi" cəmiyyətin müzakirə obyektidir. Bəziləri İslamı Rusiyanın ərazi bütövlüyü üçün təhlükə hesab edir. Eyni zamanda, digərləri Rusiya dövlətinin tərəqqisini İslama bağlılıqda görürlər. Sizin nəzərinizcə, müasir Rusiyada İslamın nə kimi rolu vardır?**

Rusiyada dini dirçəliş əhəmiyyəti hələ kifayət qədər dəyərləndirilməyən bir prosessdir. Dinin sıxışdırılması və onu tez bir zamanda məhv etmək ideologiyası cəmiyyəti faciə ilə üzləşdirən amillərdəndir, cünki bizim tarixi və mədəni

ənənələrimiz unudulmuş, cəmiyyətdəki davranış normaları və əxlaqi dəyərlər aradan getmək üzərədir.

Öz soy-kökünü unudan cəmiyyətin məsəli mütləq “vahid beynəlxalq fəhlə hərəkatı” çərçivəsində, ya da “Milli bəşəri sivilizasiyanın” ünvansız prosessində həll olmaq kimidir. Bu dini dirşəliş prosessi zaman etibarilə Rusiya cəmiyyətinin “yenidənqurma” zamanına təsadüf etmişdir.

Din, o cümlədən, İslam bu yenidənqurmanı himayə edərək ona müqəddəslik bəxş etdi. Rəsmi hökümətin necə olması və seçkilərin necə keçirilməsindən asılı olmayaraq, dini dirçəliş davam edəcək. Teologiyanın, xüsusən də, İslamın dünya prosesslərinin gedişatındakı rolu artacaqdır.

Həmin səbəbdən, müxtəlif siyasi qüvvələr İslamdan öz mənafeləri üçün istfadə etməyə çalışacaqlar. Ancaq əsas məsələ siyasi mübarizədə İslamın rolunun artması deyil, əksinə onun ümumi və müqayisəolunmaz məsələlərinin şəxsi fikirlərdə rolunun inkişafı, eləcə də, onun ölkəmizdə öncədən itirilmiş pozitiv və qədim adət-ənənələr və əxlaq meyarlarına təsiridir.

Zahirən insanların böyük əksəriyyəti İslam dinini əslində olduğu kimi qəbul etmişlər. Bunu demək lazımdır ki, islami bir mühitdə dinə qayıdış prosessi kökü xristian ortodoks olan mühitdən daha sürətlə həyata keçir. Beləliklə, İslam dininin zamanla ayaqlaşan və dəyişən şəraitə görə dinamik və münasib olan bir din olması anlaşılır.

Bundan əlavə, İslam Rusiyada azlıq təşkil edən bir kütlənin dinidir və bu cəhətdən, onların mövcudluğu və adət-ənənələrinin qorunmasında

daha təsirli vasitədir. Mən inanıram ki, müsəlmanların əksəriyyəti ortodoks xristianlardan daha yaxşı və həqiqi dindar olacaqlar. Diqqətəlayiq məsələ islami oyanışın ortodoks mühitində – xüsusilə də, ortodoks olan kütlənin müsəlman icması ilə birbaşa rabitə yaratdığı yerdə – dindarlığın inkişaf amilinə çevrilməsidir. Biz Şimali Qafqazda ortodoks adət-ənənələrinin xüsusən, kazaklar arasında bərpa olması fenomenin şahidiyik. Volqa çayının sahilində də, ruslar məscidlərlə kilsələr arasındakı say nisbətinin 51-in 1-ə olduğunu gördükdə, öz kilsələrinin sayını artırmağa çalışırlar.

**Mən dəfələrlə o məntəqələrdəki rusların belə dediyini eşitmişəm: " Bəyəm, biz onlardan pisik?", "Bu, ortodoks dini ilə İslamın mübarizə və ya müsabiqəsidirmi?" İndiyə kimi ölkəmizin tarixində belə bir hadisə müşahidə olunmuşdurmu?**

Tarixə bugünkü nəzərlə baxmamalıyıq. 16, 17 və 18-ci əsirlərdə dünya özünün xüsusi geosiyasi mövqeyində dururdu. Ərazi və yeni yaranan millətləri öz işğalı altına alan dövlətlər həmişə vahid bir ideologiya yaratmağa çalışırdı. Təbii ki, ortodoks dini hakim din olduğundan, İslamı sıxışdırırdı. Tarixdə İslamofobiya fenomeni mövcuddur.

Tatarların tarixində Luka Kanaşoviç adlı şəxsiyyətin müsəlman məscidlərini viran etməsi məlumdur. Həqiqətdə, belə hərəkatlar dövlət rəhbərlərinin deyil, əsasən Kilsənin səlahiyyətli nümayəndələrinin göstərişi ilə həyata keçirilirdi.

Rəsmi orqanlar bəzi vaxtlarda ortodoks və İslam arasında formalaşan münasibətlərə etinasız yanaşırdılar. Amma bəzi vaxtlar həmin münasibətlər dövlət siyasətinin qarşısında maneə yaratdığından, ciddi problemlər qarşıya çıxır və dövlət rəsmiləri müdaxilə edirdilər. Rəsmi orqanların müdaxiləsi bəzən yerli, bəzən də axmaqcasına idi. Heç kim İslama sevgi göstərmirdi və buna ehtiyac belə duyulmurdu. Hər halda, həmişə sağlam düşüncə vardı və Rusiya tarix boyu İslam və müsəlman millətlərlə rəftarını təyin edirdi. Ortodoks və müsəlmanların ölkəmizdə uzun müddət birgə yaşaması müxtəlif sahələrdə bir sıra yeniliklərin meydana çıxmasına səbəb olmuşdu.

**Bu uzunmüddətli birgə yaşayış sona çatacaqmı? Hazırda ayrılmaq və "Rus hakimiyyətinin boyunduruğundan" qurtarmaq haqqında uzun-uzadı söhbətlər gedir. İndiki vəziyyəti Sovet hökumətinin əvvəlki illərində mövcud olan müxtəlif millət və xalqların bərbad haldakı iqtisadi şəraitdə yenə öz istiqlal və azadlığı uğrunda mübarizəyə qalxmasına bənzədirlər. O zaman və hazırda da mərkəzdən qaçma qüvvələri mövcud idi. Siz öz kitabınızda 1918-ci ildə "Ural və Volqa əyalətləri"nin yaradılması layihəsi haqqında yazmısınız ki, bu layihə xalq və dinə əsaslanaraq həyata keçirilməlidir. Həmin layihə icra olunmadı, ancaq buna müvəffəq olsaydılar necə olardı? Əgər öz keçmişimizə nəzər salmasaq, gələcəyi qura**

**bilmərik. Mən bu sualı hazırkı müstəqillik barəsində verirəm.**

Hətta, “Ural və Volqa əyaləti” adlı bir dövlət müəyyən müddətə qədər davam etsəydi belə, sonradan öz varlığını qoruyub saxlaya bilməz və hər tərəfdən Rusiya torpaqları ilə əhatə olunmuş bu əyalət sonunda Rusiyanın bir hissəsinə çevrilərdi. Əlbəttə, əgər Rusiya tam şəkildə dağılsaydı, Ural və Sibir kimi uzaq şərqdə müstəqil dövlətlər meydana çıxar və Tatar dövləti də təsis edilərdi. Amma kütləvi şəkildə dağılmaqda olan şəraitdə kim və necə sağ qala bilərdi? Əgər Rusiyanın müsəlmanlar məskunlaşan vilayətlərinin ayrılması və bəzi milliyyətçi rəhbərlərin onunla mübarizəyə dəvətini təsəvvür etsək, “Moskva boyunduruğu”ndan kənarda onların müstəqil həyata başlaması və azadlığı reallığa çevrilə bilərdimi? Başqa qonşular onlara bu imkanı verərlərdimi?

Keçmiş SSRİ ölkələrindəki bütün müsəlmanların məskunlaşdığı ərazini şərti olaraq 3 hissəyə bölmək olar: Orta Asiya ( böyük ehtimalla həmişəlik olaraq Rusiyadan ayrılmışdır), Şimali Qafqaz və Volqa çayının sahili. Volqa sahilində yaşayan millətlər bir-birilə qaynayıb qarışmış və ruslarla möhkəm rabitə yaranmışdır. Həqiqətdə Volqa sahilində formalaşan dövlət Rusiyanın özüdür. Bu məntəqədə yeni bir dövlət qurmaq üçün yeni süni şəraitə ehtiyac var: Hər yerdə radikal İslam təbliğ olunmalı, eyni zamanda, mərkəzin qüdrəti və iqtisadiyyat zəiflədilməlidir. Xoşbəxtlikdən hələ ki, bunların heç biri mövcud deyil.

Amma Şimali Qafqazın məsələsi fərqli şəkildədir. Ora əsasən orta Asiya modelinin təkrarlanması mümkün olan bir məntəqədir. Bununla yanaşı, həmin məntəqə bir sıra xüsusiyyətlərə malikdir və orada Orta Asiya hökümət strukturundan faydalanmışdır: Orada partiyanın yerli və mərkəzi komitələri deyil, həqiqi Nazirlər Şurası idarəçiliklə məşğul olurdular. Orta Asiya Respublikalarının Kommunist partiyasının mərkəzi komitəsi onların bütün işlərini idarə edirdi.

Amma şimali Qafqazın heç bir respublikası öz dövlətçilik təcrübəsindən faydalanmamışdır. Bununla belə, bu məntəqənin sakinləri öz mədəniyyətləri, şəriət və adət-ənənəyə bağlılıqları baxımından, Volqa çayının ətrafında yaşayan xalqlarla müqayisədə Rusiyadan uzaqdırlar

Beləliklə, onların heç biri – əlbəttə, çeçenlərdən başqa, çünki orada sadəcə bir xalq yaşayır və müstəqil dövlət qura bilərlər – müstəqilliyə doğru hərəkət etməyəcəklər. Onlar çıxılmaz vəziyyətdə qalaraq ayrı bir əraziyə gedə bilməmiş, eləcə də özlərinin Rusiyadan asılılıqlarını rəsmi şəkildə tanıya bilməmişlər.

Bir fərziyyəyə əsasən, bütün şimali Qafqaz və onun ətrafyanı ərazisinin bir hissəsi eyni mərkəzdən idarə olunan münaqişə məntəqəsidir. Mən inanıram ki, bu münaqişələrin özəyidir və bütün münaqişələr bir-biri ilə əlaqəlidir; Onların bir-birini yatırıb və ya ya təhrik etməsinə baxmayaraq, müharibə baş verməyəcəkdir. Əgər müharibə olsa, bu, millətlərin məhvinə gətirib çıxaracaq.

**1918-ci ildə Mirsəid Soltan Qaliyev öz dövlətinin quruculuğu barədə Rusiya müsəlman millətlərinin mübarızəsinə münasibətini bildirərək belə demişdi: "Milliyətçilik rus və müsəlman demokratiyası arasında qanlı mübarizəyə səbəb ola bilər." Biz Rusiyada bu məsələ ilə üzləşmişikmi?**

Demokratiya barəsində qətiyyətli bir söz demək mümkün deyil. Amma Kremlin siyasətinin Rusiyanın müsəlmalar məskunlaşan məntəqələri ilə əlaqəni gücləndirməsini tələb etməsi şübhəsizdir və sonunda həmin siyasət Çeçenistanla müharibə vəziyyətinin yaranmasına gətirib çıxartdı. Bu məsələ Rusiya müsəlmanlarının radikal ruhiyyəsini yüksəltdi və az qalmışdı ki, müsəlmanların zehnində yatan islami həmrəylik fikrini oyatsın.

**Bununla belə, bəzi ziyalılar İslamın Rusiya üçün ən böyük təhlükə olmasını söyləyirlər.**

Mən bu iddianın sübutu üçün elə də güclü bir dəlilin olmasını görmürəm. Uzun illərdir ki, Rusiyada müsəlman və qeyri-müsəlmanlar arasında ictimai stabillik vardır. İslami təhlükə digər amillər səbəbilə ortaya atılmışdır. Rusiyanın özü və qonşu ölkələrdə müşahidə edilən müsəlman diasporasının vəziyyəti bu qənaətə gəlməyi rədd edir. Unutmayın ki, kamil islami vəhdət mövcud deyil. Amma müsəlmanların toplu şəkildə yaşadıqları məntəqələrdə dini və milli azlıqlar üçün müsəlmanlaşma adi bir hadisədir.

**Vəhhabilər Qafqazın şimalında təhlükə yaratmırlarmı?**

Onlar o qədər də diqqəti cəlb edən çəkici rola malik deyillər. Amma müxtəlif azlıqların mövcud olduğu məntəqələrdə münaqişələrin baş verməsi qaçılmazdır. Dünyaya bu prizmadan yanaşın: Filippində bitmək bilməyən müharibələr gedir, Hindistanda hindularla müsəlmanlar davamlı toqquşmalara girir, Sudanda müsəlmanlar məsihiləri şiddətli təzyiq altında saxlayır. Livanda çox mürəkkəb dini situasiya yaranmışdır. Yaxın keçmişdə Misirdə məsihi qibtiləri öldürüb pəncərədən yerə atırdılar. Əlbəttə, bu münaqişələri ən az təlafatlarla aradan qaldırmaq olar. Dünyaya müxtəlif cəmiyyətlərin münasibətlərini tənzimləyən bir mexanizim lazımdır.

**Din münaqiışənin səbəbi deyilmi?**

Əlbəttə, münaqişənin səbəbi din deyil. Heç bir münaqişə başlanğıcda din şəklində olmur. Münaqişənin amilləri iqtisadiyyat və cəmiyyətdir. Amma dini mübarizə mexanizimi işə düşdükdə, təklikdə bu mübarizə kifayət edir. Dini amil və münaqişə bir-birinə təsir edir.

İslami dirçəliş hərəkatının ideoloqu Heydər Camal və Tatarıstan radikal siyasi hərəkatın rəhbəri Fövziyyə Bayramova və başqaları bu əqidədədirlər. Məlum məsələdir ki, bu insanların İslama güclü imanları vardır. Burda Rusiya müsəlmanlarının İslam dünyasına aid olma hisləri öz rolunu ifa edir. Onlar dərk edirlər ki, Rusiyada İslamın oyanışı onların milli

məsələsi deyil, əksinə onun dünya İslam ümməti ilə rabitəsi vardır.

## Rusiyada İslamın vəziyyəti necə olacaqdır?

Orta Asiya müsəlman ölkələri və bizim ölkədə, xüsusən də, Tatarıstanda cari əsrin əvvəllərində İslamı Avropanın şəraiti ilə tətbiq edən islahatlar prosesi cərəyan etməkdə idi. Məlum səbəblərdən, bu prosess ölkəmizdə dayandırılsa da, hazırda yenə öz başlançıq nöqtəsinə qayıtmaqdadır. Həmin məsələ orta Asiyada Qərbin öz mədəniyyət və texnologiyası ilə ora yol tapdığı zaman müzakirə olundu. Bizim olkəmizdə də, İslam və yaşam tərzinin yenilənməsi, həmçinin, müasir islami ideologiyanın formalaşması istiqamətində "yeni islahat"lar həyata keçirilməlidir. Şübhəsiz, bu idelogiya iqtisadi münasibətlər və ümumbəşəri dəyərlər barədəki müzakirələrlə rabitəyə malik olacaq, eyni zamanda, İslam adət-ənənələri dirçələcəkdir. İslami adət-ənənələrin dünya miqyasında dini təkamülün əksinə olaraq tanıtdırılmasına baxmayaraq, bizim ölkədə dini həyat islami ənənələrin sayəsində dirçələcəkdir.

Əlbəttə, İslamın siyasi proseslərdəki iştirakının daha da genişlənməsilə yanaşı, müsəlmanların böyük siyasətə qoşulmaları müəyyən səbəblərdən çətinləşəcəkdir. Sovet hakimiyyətinin vasitəsi ilə böyük və monolit şəkildə təşkil edilən İslam cəmiyyəti indi qismlərə bölünmüş və onların arasındakı insan qruplarında da daxili vəhdət müşahidə olunmur.

Mətbuatda çox zaman İslam prinsiplərinə qayıdış, İslama meyillilik və radikallıq eyni bir məsələ

kimi hallandırılır. Ancaq bizim alim və diplomatlarımız qətiyyətlə bu anlayışları bir-birindən fərqləndirmişlər. Bu mövzunun müzakirəsinə ayrıca vaxtı ayırmaq lazımdır. Sadəcə bunu demək istəyirəm ki, ənənələrə qayıdışdakı hədəf Mühəmməd (s) peyğəmbərin zamanında təyin olunan islami dəyər və prinsiplərin dirçəldilməsidir. İslami siyasətçilər deyirlər ki, ”həqiqi islami pinsiplərinə qayıdış əksəriyyəti müsəlmanlardan ibarət olan məmləkətlərdə rus diasporasının qorunmasını təmin edir, çünki həmin prinsiplər insanların şərəf və heysiyyətinin qorunmasını tələb edir.”

İslama meyllilik həqiqi İslam prinsiplərinə qayıdışın parlaq nümunəsidir. Bu məsələnin siyasi partiyaların fəaliyyəti ilə əlaqəsi vardır. Rusiyada İslama meyllilik xüsusi bir problem yaranmadan meydana gəldi. İslami siyasi hərəkat və partiyalar (Rusiya müsəlmanlar ittifaqı, “Nur” hərəkatı və bir sıra yerli partıyalar) rəsmi şəkildə qeydə alındı. Bu partiyalarda çalışan insanlar ağıllı, ziyalı və müharibə əleyhinə olan insanlardır. Biz sadəcə Rusiyadakı İslam barəsində mövzunu əsas müzakirə obyektinə çevirərək məsələyə aydınlıq gətirdik.